11. İzahlı muğam lüğəti. Tərtibçilər: T.Məmmədov, C.Quliyev. Bakı: Ol NPKT. 2015. 214 s.
12. Qurbanəliyeva S. F. Şəxsiyyət və musiqi. Bakı: Aqiloğlu – 2010. – 160 s.
13. Səfərova Z.Y. Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər). Bakı: Elm. – 1998. – 584s.
14. Şuşinski F.M. Azərbaycan xalq musiqiçiləri. Bakı: Yazıçı. – 1985. – 478 s.
15. Zöhrabov R.F. Zərbi – muğamlar. Bakı: Mars – print. – 2004. – 406 s.
16. Zöhrabov R.F. Azərbaycan rəngləri. Bakı: Mars – print. – 2006. – 250 s.
17. Zöhrabov R.F. Azərbaycan muğamları. Bakı: Təhsil. – 2013. – 336 s.

## МУЗЫКАЛЬНО-ЭСТЕТИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА МУГАМА "ДЖАХАРГЯХ"

***Алиев Али Сахиб оглы***

***Резюме***

Статья посвящена освещению музыкально-теоретических, эстетических особенностей и исполнительских вопросов мугамного инструмента «Джахаргях».

## MUSICAL AND AESTHETIC CHARACTERISTICS OF THE MUGHAM "CHAHARGAH"

***Aliyev Ali Sahib oglu***

***Summary***

The article is devoted to the illumination of the musical-theoretical, aesthetic features and performance issues of the "Chahargah" mugham instrument.

***Rəyçi: baş müəllim Haqverdiyeva N.***
***GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın02 saylı protokolu***
***Daxil olma tarixi 12 oktyabr 2022-ci il***

**UOT:781.**

## KÖYKƏB SƏFƏRƏLİYEVA YARADICILIĞININ AZƏRBAYCAN FORTEPİANO MƏKTƏBİNİN İNKİŞAFINDA ROLU

***Hacıyeva Mehriban Şövkət qızı***
***Gəncə Dövlət Universiteti***
***mehriban.hajıyeva@ mail.ru***

**Xülasə*:*** *Görkəmli pianoçu-pedaqoq Köykəb Səfərəliyeva (1907-1985) Azərbaycanda fortepiano ifaçılığı sənətinin əsasını qoyan musiqi xadimlərindən biri olmuşdur.*

*Bir sıra elmi-metodik dərsliklərin, fortepiano üçün külliyatın tərtibçisi, musiqi haqqında məqalələrin müəllifi olan Kövkəb Səfərəliyeva Azərbaycanda musiqi təhsilinin inkişafında böyük rol oynamışdır.*

*Məqalədə Azərbaycan fortepiano mədəniyyətinin yaranması və inkişafı, bu mədəniyyətin görkəmli nümayəndəsi Köykəb Səfərəliyevanın yaradıcılığının musiqi təhsilinə təsiri ətraflı öyrənilmişdir.*

**Açar sözlər:** fortepiano, musiqi, məktəb, mədəniyyət, tələbə
**Ключевые слова:**композитор, фортепиано, музыка, культура, студент.
**Key Word**:coumposer,piano, school, culture, student.

Azərbaycan xalqı özünəməxsus yüksək maddi və mənəvi mədəniyyət yaranmışdır. O bədii yaradıcılığın ən müxtəlif sahələrində, o cümlədən musiqi yaradıcılığı sahəsində də qiymətli sərvətlər meydana gətirmişdir.

XX əsrin əvvəllərindən inkişaf etməyə başlayan Azərbaycan fortepiano tarixi zəngin, çoxtərəfli təhlilə layiq bir sahədir. O dövrdə dövlət sistemində musiqi təhsili mövcud deyildi və musiqi təhsilinin taleyi ictimai təşkilatlardan asılı idi. Buna baxmayaraq qabaqcıl musiqiçilər musiqi təhsilinin əsasını qoymağa çalışırdılar. Bu yolda ilk addım istedadlı pianoçu, Moskva Konservatoriyasının məzunu Antonina Nikolayevna Yermolayeva atmışdır. İlk şəxsi məktəb 1895-ci ilin sonunda açılmış və müdiri A.N.Yermolayeva olmuşdur.

1916-cı ildə bir neçə şəxsi musiqi məktəbləri birləşdirilərək orta ixtisas musiqi məktəbi yaradıldı. Bu məktəbdə proffesional musiqiçilər hazırlanırdı. Məktəbə pianoçu Y.A.Rıjinski rəhbərlik edirdi. Azərbaycanda ciddi və planlı şəkildə musiqiçi kadrlar hazırlanmağa başladı. Musiqiçi kadrların hazırlanmasının surətlə getməsinə səbəb Bakıda istedadlı musiqiçilərin olması idi. Onların arasında yüksək səviyyəli pianoçular da var idi.

1920-ci ildə orta ixtisas musiqi məktəbi Xalq Konservatoriyasına çevrilir, 1921-ci ilin 26 avqust tarixində Azərbaycan Dövlət Konservatoriyası açılır. 1922-ci ildə Üzeyir Hacıbəyli tərəfindən yaradılmış musiqi məktəbi kursları 1926-cı ildə konservatoriyaya birləşdirilir.

1921-1923-cü illərdə konaservatoriyanın ilk rektoru və fortepiano sinifinin rəhbəri M.L.Pressman olmuşdur.

Azərbaycanda fortepiano pedaqoqikasında əhəmiyyətli rol oynayan pianoçular Q.Q.Şaroyev və M.R.Brenner olmuşdur.

1937-ci il Azərbaycan incəsənəti üçün əlamətdar hadisə Üzeyir Hacıbəylinin konservatoriyaya rektor təyin olunması idi. Məhz onun konservatoriyaya gəlişi ilə buraya gənc ixtisasçılar dəvət olundu. Belə ki, 1939-cu ildə xüsusi fortepiano sinifi ilk Azərbaycanlı qadın pianoçu Azərbaycan mədəniyyət xadimləri arasında musiqi və ifaçılıq sənətinin əsasını qoyanlardan biri. Azərbaycan Respublikasının Xalq Artisti, Əməkdar İncəsənət Xadimi, professor Köykəb Səfərəliyevaya tapşırılır.

Qryd etmək lazımdır ki, adı görkəmli yerlərdən birini tutan K.Səfərəliyevanın həyatı və yaradıcılığı XX əsrin 20-30-cu illərdən başlayıb. O, həyatının 60 ilini musiqiyə həsr etmiş, bir neçə nəsil pianoçu tərbiyə etmişdir ki, bu da Azərbaycan fortepiano incəsənətinin ayrılmaz hissəsidir.

Köykəb xanım pedaqoji fəaliyyətə 1926-cı ildə hələ tələbə olarkən başlamışdır. İstedadlı pianoçu konservatoriyaya müəllim-təcrübəçi kimi qəbul olunmuş, eyni zamanda rus dilini bilməyən tələbələrə polifoniya və musiqi ədəbiyyatı fənnlərindən dərs deyməyə başlamışdır. Bir müddət Şaroyevin sinifində assistent işlədikdən sonra Azərbaycan Dövlət Konservatoriyasının xüsusi fortepiano şöbəsinə müəllim qəbul olunnan K.Səfərəliyeva bu dövrdə gərgin pedaqoji fəaliyyətə başlayır.

1935-ci ildə K.Səfərəliyeva Moskvaya musiqiçi müəllimlərin ixtisasartırma kursuna gedir. İki illik kursu bir ildə bitirən gənc musiqiçi vətənə qayıdır və Azərbaycanın qaynar musiqi hətatına daxil olur. O, respublikanın bütün ictimai işlərində iştirak edir, bütün musiqi tədbirlərinin iştirakçısı və rəhbəri olurdu.

Azərbaycanda musiqi təhsilinin inkişafında böyük rolu olan Kövkəb xanım 1937-ci ildə konservatoriyanın nəzdində orta ixtisas musiqi məktəbini yaradıb (indiki Bülbül adına məktəb) və onun direktoru olub.

P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının professoru K.Səfərəliyevanı yaxşı tanıyan Yakov İsakoviç Milştyeyn özünün şifahi çıxışlarında Kövkəb xanımı Azərbaycan musiqi mədəniyyətinin unudulmaz simalarından biri, “həyatda daim milli

pianoçuluq sənətinin alovlu entuziastı olan, yüksək intellektual mədəniyyətə malik həssas musiqiçi-pedaqoq" adlandırıb.

O, bir çox Azərbaycan musiçilərinin, o cümlədən dünya şöhrətli müğənnimiz Müslüm Maqomayevin ilk müəllimlərindən biri olub [1,s.2].

Professor Tərlan Seyidov "XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı" kitabında yazır: " Azərbaycan musiqi sənətinin görkəmli nümayəndələri içərisində K.Səfərəliyeva ən şöhrətli yerlərdən birini tutur. Respublikada fortepiano təhsilinin inkişafı, milli fortepiano repertuarının yaradılması bir çox hallarda onun adı ilə bağlıdır. Onun böyük şövq və həvəsi sayəsində Azərbaycan bəstəkarlarının çoxlu sayda pyelər məcmuəsi nəşr olunmuşdur. Üzeyir Hacıbəylinin rəhbərliyi altında onun yazıb, 1946-cı ildə nəşr etdirdiyi "Azərbaycan ladları əsasında pyeslər" adlı vəsaiti xüsusi metodiki və praktiki maraq səsb etmişdir. Bu, respublika tarixində ilk orijinal müntəxəbat adı və yeni başlayanlar üçün azərbaycan xalq musiqisinin səciyyəvi xüsusiyyətlərini özündə cəmləşdirirdi. Bu məcmuəni redaktə edən Üzeyir Hacıbəyli ön sözdə aşağıdakıları qeyd etmişdir: "Hazırkı istiqamətdə bu, ilk təşəbbüs olub, fortepianoda çalmağı öyrənmək üçün uşaqların qavramasına daha yaxın olan və eşitmə yolu ilə asanlıqla yadda qalan musiqi materialı üzərində qurularaq, müəllim duyumu nəticəsində əmələ gəlmişdir" [2.s.26].

Aparılan araşdırmalar göstərir ki, K.Səfərəliyevanın zəngin pedaqoji fəaliiyəti rus pianoçululq məktəbi xadimlərinin diqqətindən yayınmayıb. A.B.Qoldenveyzer, G.G.Neyqauz, S.Y.Feynberq, L.N.Oborin, Y.B.Filer onun sinifinin tələbələrinin yüksək akademik səviyyəsinin xüsusi qeyd ediblər.

K.Səfərəliyevanın keçmiş tələbələri arasında böyük istedada malik pianoçular çoxdur. Bunlardan Tamilla Mahmudova, Gülər Əliyeva, Zivər Əliyeva, Svetlana Əliyeva-Korş, Doqyuş Salamzadə, Məryəm Əliyeva, Sara Musabəyova, Elmira Topçubaşova, Validə Yaqubova, Lalə Topçubaşova, Gülər Rzayeva, Adilə Mayılova uzun illər pedaqoji fəaliiyətlə məşğul olmuş onlarla tələbənin yetişməsində mühüm rol oynamışlar.

1940-cı ildə K.Səfərəliyevaya Əməkdar İncəsənət Xadimi, 1972-ci ildə Azərbaycan Respublikasının Xalq Artisti fəxri adları verilmişdir.

1952-ci ildən Köykəb xanım Azərbaycan Dövlət Konservatoriyasının xüsusi fortepiano kafedrasına rəhbərlik etməyə başlayır. Dəflərlə ifaçıların Respublika və Zaqafqaziya müsabiqələrinin münsiflər heyətinin üzvü seçilir.

Köykəb xanımın pedaqoji fikirləri haqqında çox danışmaq olar. İlk növbədə onun sinifində həmişə tələbələr arasında rəqabət, sağlam ruh hökm sürürdü. Hər bir tələbə özünü yaşlılara bənzətməyə çalışırdı. Köykəb xanım da tələbələrdə gələcəyə həvəs yaradır, onları ruhlandırırdı. Onun tələbələri Bakıda və başqa şəhərlərdə müsabiqələrdə, konsertlərdə çıxışlar edir, yüksək nailiyyətlər əldə edirdilər.

Sinifdə təlim-tərbiyə ciddi idi. Köykəb xanım işə vicdanla yanaşması ilə başqalarına nümunə idi. Onun sinifdə öyrənilən əsərlərin repertuar diapazonu geniş idi. Bu, qədim klavesin musiqisindən Azərbaycan və xarici ölkə bəstəkarlarının müasir musiqisinə qədər idi. Bə əsərlərin notlarını Köykəb xanım özü əldə edir və bəzən bu əsərləri tələbələr əlyazmadan çalırdılar.

Qeyd etmək lazımdır ki, tələbələrlə işdə Köykəb xanım klassik fortepiano məktəbinin ən yaxşı ənənələrinə əsaslanırdı. Klassik musiqinin öyrənilməsinə xüsusi diqqət yetirir, Haydn, Motsart, Bethovenin əsərləri mütləq proqrama daxil edilirdi. İ.S.Baxın prülüdiya və fuqaları bir-bir deyil, bir dəfəyə bir neçəsi ifa olunub səhnəyə çıxarılırdı. Burada Köykəb xanım mövcud olan bütün redaksiyalarla maraqlanırdı. Xüsusi hallarda əsərin düzgün ifa olunmasına əmin olmaq üçün notları Moskvaya A.B.Qoldenveyzerə göndərirdi. Tələbələrin

repertuarına L.Qodovskinin transkripsiyasında J.F.Ramo, J.B.Lülli və başqa bəstəkarların əsərlərini daxil edirdi.

Tələbələrin texniki cəhətdən inkişafını üçün sinifdə çoxlu etüdlər keçilir, qammaların ifası məcburi idi.

Ritm, musiqinin dinamizasiyası əsas faktorlardan biri idi. Applikatura üzərində işdən passajların aydınlığı, düzlüyü,səsin keyfiyyəti və gücü asılı idi.

Əsərin öyrənilməsi onun əvvəlcə bütövlüklə qavranılmasından, onun ideya bədii məzmununun dərindən mənimsənilməsindən, ifaçılıq-kompozisiya planının düşünülməsindən başlanırdı.

“Əgər 70-ci illərdə tələbələr “Köykəb xanım bizə nəyi öyrədir?” sualına cavab verə bilmirdilərsə sonralar onlara aydın oldu ki, eşitmə qabiliyyətinin inkişaf etdirilməsi, musiqiyə “qulaq asmaq”, ifa etdiyi əsərəri qavraya bilməyi öyrəndiklərini etiraf edirdilər”[3.s.21]

Azərbaycan fortepiano musiqisində təbliğatı xüsusilə qetd etmək lazımdır. Bütün yaşlı nəslin bəstəkarları Köykəb xanımla yaradıcılıq əlaqəsində idi. O, tez-tez bu əsərləri redaktə edir və estradaya vəsiqə verirdi. Bir çox bəstəkarların əsərlərinin ilk ifaçıları da məhz Köykəb xanımın tələbələri olmuşdur. Belə ki, Qara Qarayevin fortepiano əsərlərinin ilk ifaçısı Fəridə Quliyeva , Svetlana Korş-Əliyeva (“24 prelüd” silsiləsinin I və II dəftəri), Azərbaycan bəstəkarlarının bir çox əsərlərinin ifaçısı Tamilla Mahmudova olmuşdur.

Azərbaycan fortepiano musiqisinin məşhurlaşmasında böyük rolu olmuş professorun 1971-ci il, dekabrın 2-də Azərbaycan Dövlət Konservatoriyasının (Bakı Musiqi Akademiyasının) böyük zalında tərtib edib, çap etdirdiyi “Azərbaycan bəstəkarlarının fortepiano pyesləri məcmuəsi”ndən ifa olunan əsərlərin konserti keçirilmişdir. Bu konsertdə bəzi əsərlər ilk dəfə səslənirdi.

Köykəb xanım Qara Qarayevin anadan olmasının 60 illiyi münasibəti ilə təşkil olunmuş fortepiano prelüdlərinin ən yaxşı ifaçısı müsabiqəsinin təşkilatçısı olmuşdur.

Yekun olaraq qeyd etmək lazımdır ki, Azərbaycanın Xalq Artisti, Respublikanın Əməkdar İncəsənət xadimi, professor K.Səfərəliyeva milli fortepiano məktəbinin yaradıcılarından biri kimi tarixə düşüb və onun yaradıcılığı milli musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamışdır.

***Ədəbiyyat***

1.Seyidov T. “XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı”**.** Bakı, “Təhsil”, 2016. 336 s.
2.www.musiqi-dünyası.az
3.Маилова А. “Методика преподования профессора К.К.Сафар-Алиевой”. (учебное пособие). Баку, “Elm və təhsil”, 2018. 127 с.
4.Qurbanəliyeva S. Şəxsiyyət və musiqi. Bakı, “Adiloğlu” 2010. 160 s.
5.Абаскулиева Л.Г. Основные тенденции формирования и развития азербайджанской профессиональной фортепианной культуры. Автореф. дисс… канд. искусств. Баку, 2005. 28 с.

**Saytoqrafiya**
http://uzeyir.musigi-dunya.az
http://menevi.musigi-dunya.az
http://epistolyar.musigi-dunya.az
www.ganja-ih-gov.az
www.gencekitab.az

## РОЛЬ ТВОРЧЕСТВА К.САФАРАЛИЕВОЙ В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОЙ ФОРТЕПИАННОЙ ШКОЛЫ

***Гаджиева Мехрибан Шовкет кызы***

***Резюме***

Пианист-педагог К.Сафаралиева (1907-1985) была одним из выдающихся музыкантов, заложивших основы фортепианного искусства в Азербайджане.

К. Сафаралиева, составитель ряда научно-методических пособий, сборника для фортепиано, автор статей о музыке, сыграла большую роль в развитии музыкального образования в Азербайджане.

В статье подробно рассматривается возникновение и развитие Азербайджанской фортепианной культуры, влияние творчества видной представительницы этой культуры Койкаб Сафаралиевой на музыкальное образование.

## THE ROLE OF KOYKEB SAFARALIYEVA'S CREATIVITY IN THE DEVELOPMENT OF THE AZERBAIJANI PIANO SCHOOL

***Hajiyeva Mehriban Shovkat***

***Summary***

Prominent pianist-pedagogue Koykab Safaraliyeva was one of the prominent musicians who laid the foundation of the art of piano performance in Azerbaijan.

K. Safaraliyeva, the compiler of a number of scientific-methodical textbooks, the compendium for the piano, and the author of articles about music, played a major role in the development of music education in Azerbaijan.

The article examines in detail the emergence and development of Azerbaijani piano culture, the impact of the work of Koykab Safaraliyeva, a prominent representative of this culture, on music education.

***Rəyçi: baş müəllim Haqverdiyeva N.***
***GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli  içlasın02 saylı protokolu***
***Daxil olma tarixi 12 oktyabr 2022-ci il***

**UOT:781.**

## KONSERTMEYSTER BACARIQLARININ MAHİYYƏTİ VƏ ƏHƏMiYYƏTİ

***Haqverdiyeva Nərgiz Əli qızı***
***Gəncə Dövlət Universiteti***
**nargizhaqverdiyeva.@gmail.com**

**Xülasə**: *Konsertmeyster sənəti musiqi təhsilinin və ifaçılığının mühüm və ayrılmaz hissəsidir. Konsertmeysterin əsas məqsədi musiqi ifasının gözəlliyini və emosionallığını dinləyicilərə daha dolğun şəkildə çatdirmaqdan ibarətdir.*

*Məqalədə konsertmeyster sənətinin inkişaf mərhələləri və əsas xüsusiyyətləri təhlil edilmiş, konsertmeyster bacarıqlarının mahiyyəti, əhəmiyyəti  və onların istifadə sahələri öyrənilmişdir. Konsertmeyster peşəsi pianoçuların peşəkar fəaliyyətində layiqincə  məhəbbət və rəğbət qazanmışdır.*